# AZƏRBAYCANDA TƏQSİRSİZLİK PREZUMPSİYASI

İnsan Hüquqlarının Müdafiəsi üzrə "Tolerantlıq" İctimai Birliyi tərəfindən hazırlanmış hesabatın icmalı

## A. Giriş

2005-ci ilin noyabrında Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Bakı ofisi Azərbaycanın bir qrup hüquqşünasından Azərbaycanın təqsirsizlik prezumpsiyası prinsipinə riayət etməsinə dair hesabat hazırlamağı xahiş etmişdir. Özəl sahədə çalışan Azərbaycanın veteran hüquqşünaslarından ibarət olan bu qrupun üzvləri müxtəlif metodlardan istifadə etməklə, o cümlədən Azərbaycan mediasındakı yazıları araşdırmaqla, əvvəllər cinayət işləri üzrə təqsirləndirilən şəxsləri dindirməklə, icmallar aparmaqla və şikayətlər üçün qaynar xətt yaratmaqla Azərbaycanda təqsirsizlik prezumpsiyasının qorunmasının keyfiyyətini qiymətləndirməyə çalışmışlar. Yekunda, onların aşkar etdikləri Azətbaycanda təqsirsizlik prezumpsiyasının vəziyyətindən razı galmağa o gədər də çox əsas verməmişdir. Onlar tərəfindən aşkar olunduğu kimi, təqsirin şübhə edilməsi ilə cinayətkar davranışın sübuta yetirilməsi eyni funksiyaya malik olsa da, Azərbaycanda jurnalistlər, polis zabitləri, prokurorlar və hakimlər çox tez-tez bunları eyniləşdirirlər. Təqsirləndirilən şəxslərin bəziləri heç mühakimə olunmasa da, prokurorluq orqanları və polis idarələri televiziya vasitəsilə və ya mətbuatdakı məlumatlarında təqsiri ictimaiyyətə təlqin etmək üçün bunları eyniləşdirirlər. Bu çatışmamazlıqları aradan qaldırmaq məqsədilə, hüquqşünaslar, dövlət orqanlarında daxili islahat və dövlət rəsmiləri və ya media nümayəndələrinin cari işlər üzrə nitqlərinin və onlar tərəfindən verilən məlumatların daha dəqiq tənzimlənməsinə şərait yaradacaq bu prosesi müdafiə edən əlavə qanunların qəbul olunmasını təklif edirlər.

## B. Təqsirsizlik Prezumpsiyasi ümumi kontekstdə

Təqsirsizlik prezumpsiyası böyük hüquqi təcrübə ilə dəstəklənir və bir sıra konvensiyalar vasitəsilə müasir beynəlxalq hüquq bu prinsipə riayət olunmanı təmin edir.

### *I. Prinsipin tarixi*

Təqsirsizlik prezumpsiyası prinsipinə Bibliyada və hətta bir qədər əvvəllər Qədim Yunanıstanda Afinanın və Spartanın qanunlarında da rast gəlinir. Məlumdur ki, Roma İmperiyası zamanı bu prinsip hüquqi təcrübənin tərkib hissəsi olmuşdur; Roma Məcəlləsinin 4-cü kitabında bəyan edilir ki, "Qoy bütün ittamçılar başa düşsünlər ki, onlar müvafiq şahidlər və ya şübhə doğurmayan sənədlər və ya təkzibolunmaz sübüt hesab edilən və gün kimi aydın olan dolayı sübutlarla sübuta yetirilmədən heç bir ittiham irəli sürməməlidirlər."[1] Hətta orta əsrlər Avropasında, heç də həmişə həqiqətdə

---

[1] Bax, Məcəllə, L, IV, T. XX, 1, 1.25

buna əməl olunmasa da, "təqsir subuta yetirilmədən təqsirsiz" fikrinə üstünlük verilmişdir. On üçüncü əsrdə *İus Commune* qeyd etmişdir ki, heç kim özünü təqsirli bilən ifadə verməyə məcbur edilə bilməz və heç bir müttəhim hər hansı şəraitdə mühakimə olunmaq və tam, güclü müdafiə hüququndan məhrum oluna bilməz – bunu biz bu gün təqsirsizlik prezumpsiyasının əsası hesab edirik.

Vaxt keçdikcə, təqsirsizlik prezumpsiyası davam etmişdir. 1700-cü illərin ortalarında İngiltərədə yazan Blakstoun qeyd etmişdir ki, "qanunlara görə on təqsirkar şəxsin qaçması bir nəfər təqsirsiz şəxsin itkiyə məruz qalmasından yaxşıdır". Bir neçə onillikdən sonra Fransa inqilabı zamanı, "İnsan və Vətəndaş Hüquqları haqqında Bəyannamə"nin 9-cu maddəsində qeyd olunmuşdur ki, "həbs zəruri hesab olduğu halda bütün şəxslər təqsirli bilinənədək onlar təqsirsiz hesab olunduğundan təhlükəsizlik üçün vacib olmayan kobud hərəkətlər qanunla qəti surətdə qadağan olunmalıdır". Oxşar fikirlərə hüquq tarixi salnaməsində çox rast gəlinir.

### *II. Prinsipin beynəlxalq hüquqda təsbiti*

Müasir hüquq milli suverenliklə bağlı dar fikirlərlə əhatələndiyindən, təqsirsizlik prezumpsiyası beynəlxalq standarta çevrilməmişdir. Əlbəttə, Azərbaycanın qoşulduğu bir çox beynəlxalq sənədlərdə təqsirsizlik prezumpsiyası öz əksini tapmışdır və bu səsnədlər Azərbaycan qanunverciliyinin ayrılmaz hissəsidir.İnsan Hüquqları haqqında Ümumi Bəyannamənin 11-ci maddəsində bəyan olunurki, "Cinayət əməli törətməkdə təqsirləndirilən hər bir kəs onun müdafiə üçün zəruri bütün təminatlara malik olmalı olduğu məhkəmədə təqsiri qanuna uyğun şəkildə sübuta yetirilməyənədək təqsirsiz bilinmək hüququna malikdir". Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 14-cü maddəsində də eynilə qeyd olunur: "Cinayət əməli törətməkdə təqsirləndirilən hər bir kəs onun təqsiri qanuna uyğun şəkildə sübuta yetirilməyənədək təqsirsiz bilinmək hüququna malikdir". İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Qorunması haqqında Avropa Konvensiyasının 6.2-ci maddəsində də eynilə qeyd olunur ki, "Cinayət əməli törətməkdə təqsirləndirilən hər bir kəs onun təqsiri qanuna uyğun şəkildə sübuta yetirilməyənədək təqsirsiz bilinmək hüququna malikdir".

## V. Azərbaycan qanunvericiliyində təqsirsizlik prezumpsiyası

Azərbaycan Respublikası bu beynəlxalq sənədlərə qoşularkən onları tətbiq etmək öhdəliyini öz üzərinə götürmüşdür. Onun Konstitusiyasında və qanunlarında bu şhdəlik aydın şəkildə təsbit olunmuşdur. 1995-ci il Konstitusiyasının 63-cü maddəsində nəzərdə tutulur:

1. Hər kəsin təqsirsizlik prezumpsiyası hüququ vardır. Cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxs, onun təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməyibsə və bu barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü yoxdursa, təqsirsiz sayılır.

2. Şəxsin təqsirli olduğuna əsaslı şübhələr vardırsa, onun təqsirli bilinməsinə yol verilmir.
3. Cinayətin törədilməsində təqsirləndirilən şəxs özünün təqsirsizliyini sübuta yetirməyə borclu deyildir.
4. Ədalət mühakiməsi həyata keçirilərkən qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə oluna bilməz.
5. Məhkəmənin hökmü olmasa kimsə cinayətdə təqsirli sayıla bilməz.

Azərbaycanın Cinayət Prosessual Məcəlləsi və İnzibati Xətalar Məcəlləsi[2] eynilə hüquqi proseslərdə təqsirsizlik prezumsiyasını müdafiə edir.[3]

Lakin Azərbaycanda təqsirsizlik prezumpsiyası mühakimənin necə aparılmasını nəzərə almır. Azərbaycan qanunlarında da nəzərdə tutulur ki, cinayət törətməkdə təqsirləndirilən şəxslər şübhə altında olarkən yaşamaq, seçkilərdə iştirak etmək, işləmək, təhsil almaq və digər hüquqlardan məhrum oluna bilməz. Bundan əlavə şəxsin cinayət törətməkdə təqsirləndirilməsi faktı onun cinayətkar kimi tanınmasına əsas vermir. Bu təqsirsizlik prezumpsiyasının gündəlik, praktiki nəticəsidir; bunun la da onlar cinayət törətməkdə təqsirləndirilənlərin normal yaşamasını və ədalətli, qərəzsiz mühakimə gözləməsini təmin edir. Lakin bu, Azərbaycan təcrübəsində təqsirsizlik prezumpsiyasının ən çox məhdudlaşdırılan gündəlik aspekləridir.

## Q. Təqsirsizlik prezumpsiyası təcrübədə

Azərbaycanda hökumət və media tərəfindən verilən sensasion və əsaslandırılmamış bəyanatlar  köhnəlmiş hüquqi baxışlarla və cinayət törətməkdə təqsirləndirilən şəxsləri təqsirsizlik prezumpsiyası hüququndan məhrum etmək halları ilə bağlıdır.

Məhkəmənin yekun qərarı olmadan, dövlət rəsmiləri tərəfindən cinayət törətməkdə şübhəli bilinən şəxsin təqsirli olduğunu bildirən rəsmi bəyanatlar və ya müsahibələr vermək yolverilməzdir; bu cür bəyanatlar və müsahibələr təqsirləndirilən şəxsin nüfuzuna və ləyaqətinə xələl gətirir və hakimlər və məhkəmələr tərəfindən işlər üzrə müstəqil qərar verilməsini çətinləşdirir. Buna baxmayaraq, Azərbaycanda bu cür

[2] Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 8-ci maddəsində təqsirsizlik prezumpsiyası prinsipi aşağıdakı kimi təsbit olunmuşdur: Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin təqsiri bu Məcəllə ilə nəzərdə tutulmuş qaydada sübuta yetirilmədikdə və bu, inzibati xəta haqqında iş üzrə icraata baxmış hakimin, səlahiyyətli orqanın (vəzifəli şəxsin) qüvvəyə minmiş qərarı ilə müəyyən edilmədikdə o, təqsiri olmayan hesab edilir. İnzibati məsuliyyətə cəlb olunmuş şəxs öz təqsirsizliyini sübut etməyə borclu deyildir. İnzibati məsuliyyətə cəlb olunmuş şəxsin təqsirli olması barəsində şübhələr onun xeyrinə həll olunur.

[3] CPM-nin 21-ci maddəsində qeyd olunur ki, "Cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxs onun təqsiri bu Məcəllədə nəzərdə tutulmuş qaydada sübuta yetirilməyibsə və by barədə qanuni qüvvəyə minmiş məhkəmənin hşkmü yoxdursa, təqsirsiz sayılır. Şəxsin təqsirli olduğuna əsaslı şübhələr varsa da onun təqsirli bilinməsinə yol verilmir. Bu Məcəllənin müddəalarına uyğun surətdə müvafiq hüquqi prosedur daxilində ittihamın sübuta yetirilməsində aradan qaldırılması mümkün olmayan şübhələr təqsirləndirilən şəxsin (şübhəli şəxsin) xeyrinə həll edilir. Eyni ilə cinayət və cinayət-prosessual qanunlarının tatbiqində aradan qaldırılmamış şübhələr də onun xeyrinə həll olunmalıdır. Cinayət törədilməsində təqsirləndirilən şəxs özünün təqsirsiz olmasını sübuta yetirməyə borclu deyildir. İttihamı sübuta yetirmək və ya təqsirləndirilən şəxsin müdafiəsi üçün irəli sürülən dəlilləri təkzib etmək vəzifəsi ittiham tərəfinin üpərinə düşür. "

təcrübə adi hal almışdır. Baş Prokuror, Daxili İşlər Naziri, Prezident Aparatının nümayəndələri və digər icra orqanları çox tez-tez yüksək səviyyəli işlərdə şübhəli şəxsləri "cinayətkar" adlandırır və onların təqisirini göstərən sübutları müzakirə edirlər. Orqanlar və həm dövlətə məxsus, həm də özəl media arasında əməkdaşlıq bu problemi daha da kəskinləşdirir. Televiziyada və mətbuatda sübuta yetirilməmiş iddialar cinayət işləri üzrə faktlar kimi göstərilir və dövlət rəsmilərinin ittihamedici nitqləri və müsahibələri yayımlanır. Ən narahatedici məqam isə ondan ibarətdir ki, istintaq zamanı hüququ-mühafizə orqanları tərəfindən əldə olunmuş video lentlər və fotoşəkillər çox tez-tez televiziya vasitəsilə göstərilir; bu cür materiallar polis müstəntiqləri tərəfindən dindirilən şəxslərin işlərinə əlavə edilir.

Azərbaycanın son dövr tarixində bu cür təcrübəyə rast gəlinir. Cinayətkar dəstəyə rəhbərlik etdiyinə görə 2005-ci ilin əvvəlində Daxili İşlər Nazirliyinin Cinayət Axtarış İdarəsinin sabiq əməliyyat müvəkkili Hacı Məmmədova qarşı cinayət işi qaldırılarkən hökumət orqanları dərhal onun bu əməlləri ilə bağlı sübutları və iddiaları icitimaiyyətə açıqlamağa başlamışlar. 2005-ci ilin martında hələ ibtidai araşdırmalara başlayarkən Daxili İşlər Nazirliyinin rəsmi saytında "Hacı Məmmədovun neçə illər ərzində qətllər, adam oğurluğu və digər ağır cinayətlər törədən cinayətkar dəstəyə başçılıq etməsi" ilə bağlı ittihamlar getmişdir. Televiziya kanalları və qəzetlər Məmmədova və onun həmkarlarına "cinayıtkarlar" və "qatillər" kimi istinad edirdilər. İstintaq davam edərkən, hökumət rəsmiləri mətbuatda onların əməlləri barədə məlumatlar verirdilər; 2006-ci ilin yanvarında "Today.az" qəzetində gedən yazıda "Hacı Məmmədovun daha cox cinayətlərini açılayan Milli Təhlükəsizlik Nazirliyi və Prokurorluq tərəfindən verilən birgə məlumat" qeyd olunmaqla, Məmmədov tərəfindən hazırlanan bir sıra adam oğurluğu və quldurluq cinayətlərinin geniş təfsilatı verilmişdir. İstinat zamanı, bu cür mılumatlar adi hal almışdır. Mammadov hazirda mühakimə olunur, lakin onun təqsiri artıq yekun nəticə kimi məlumdur.

2005-ci ilin oktyabrında qaldırılmış keçmiş Səhiyyə Naziri Əli İnsanova qarşı, keşmiş Maliyyə Naziri Fikrət Yusifova, keçmiş İqtisadi İnkişaf Naziri Fərhad Əliyevə və Parlamentin keçmiş sədri Rəsul Quliyevə qarşı qaldırılmış cinayət işlərində də teqsirsizlik prezumpsiyalarının pozulması ilə xarakterizə olunur. Daxili İşlər Nazirliyinin rəsmi saytında Yusifovun, İnsanovun və Quliyevin 2005-ci ilin noyabrında dövlət çevrilişi etmək məqsədilə əlbir olduqları ilə bağlı [4], çevrilişə

[4] Məlumatın mənbəyi, Daxili İşlər Nazirliyinin İnternet saytı - http://www.mia.gov.az/.
«İstintaq araşdırmaları göstərir ki, Fikrət Yusifov mütəmadi əlaqə saxladığı Rəsul Quliyevin tapşırığı ilə müxtəlif vaxtlarda Əli İnsanovla da görüşmüş, ölkədə hakimiyyətin zorla ələ keçirilməsi məqsədilə planlaşdırılmış işlərdə daha fəal iştirak etməsi, eləcə də lazım olan məbləğdə maliyyə vəsaiti ayırması barədə göstərişlərini ona çatdırmışdır» - bu sözlərdə və növbəti abzasda rast gəldiyimiz bu sözlərdə «Fikrət Yusifov 2005-ci ilin avqust ayında Əli İnsanovla əlaqə saxlayaraq Novxanı-Sumqayıt yolunun kənarındakı «Flaqman» restoranında görüşmüşdür. Söhbət zamanı Əli İnsanov dövlət mənafeləri əleyhinə yönəlmiş planları dəstəkləyərək hərtərəfli kömək edəcəyi barədə söz vermiş və Rəsul Quliyevi buna əmin etməyi Fikrət Yusifovdan xahiş etmişdir.
Avqust ayının sonlarında Sankt-Peterburq şəhərində olarkən Fikrət Yusifov Rəsul Quliyevlə telefon əlaqəsi yaradaraq hakimiyyətin zorla ələ keçirilməsinə Əli İnsanovun tərəddüd etmədən istənilən maliyyə yardımını göstərməyə hazır olduğunu bildirmiş və Rəsul Quliyev öz növbəsində, Əli İnsanovdan 100 min ABŞ dolları almaq barədə tapşırıq vermişdir»

hazırlıqda iştirak etməzdən əvvəl Əliyevin varlanmaq üçün sistematik olaraq öz mövqeyindən sui-istifadə etməsi[5] və Quliyevin 2005-ci ilin sonlarında zor gücünə hakimiyyəti ələ keçirməyə hazırlaşarkən bir sıra cinayət əməlləri törətdiyi[6] barədə məlumatlar getmişdir.

İnsanov özünün bu cür pozulmuş hüquqlarını bərpa etməyə səy göstərmişdir. 2006-cı ilin əvvəllərində o, "şərəf və ləyaqəti alçaldan böhtan xarakterli məlumatların yayımına" görə Azərbaycan kanallarına – LiderTV və AzTV-yə qarşı iddia qaldırmışdır. İnsanovun bu işinə rayon məhkəməsində baxılarkən AzTV uğurla bildirmişdir ki, o, bu məlumatlara görə heç bir məsuliyyət daşımır, belə ki, bu məlumatlar Prokuroluğun, Milli Təhlükəsizlik Nazirliyinin və Daxili İşlər Nazirliyinin mətbuat xidmətlərinin hazırladıqları materiallara əsaslanır. İnsanov tərəfindən verilən apellyasiya şikayətləri də heç bir nəticə verməmişdir. İnsanov son vaxtlarda böhtana görə digər bir quruma – *Yeni Yol* qəzetinə qarşı iddia qaldırmışdır, hazırda o, məhkəməni gözləyir və hökumət isə onların təqsirini göstərən məlumatlar hazırlamaqda davam edir. 2006-cı ilin may ayında Baş Prokuror reportyorlara bildirmişdir ki, bu müttəhimlərin 2005-ci il dövlət çevrilişinə hazırlıqdakı rolu "təsdiq olunmuşdur".

Müstəntiqlər, prokurorlar və media ilə yanaşı məhkəmələr də təqsirsizlik prezumpsiyası prinsipinə riayət etməmişlər. İnsan Hüquqları üzrə Avropa Məhkəməsi vurğulayır ki, təqsirsizlik prezumpsiyası hüququna görə "Məhkəmə üzvləri öz vəzifələrini həyata keçirərkən prosesə əvvəlcədən təqsirli şəxsin onun təqsirləndirildiyi əməli törətməsi fikri ilə başlamamalıdır, və hər hansı bir şübhə onun xeyrinə həll olunmalıdır"[7] Lakin Azerbaycanda hələ də "polis və prokuror həmişə düzdür" kimi Sovet dövründən qalan fikir hökm sürür. Polis tərəfindən saxlanılma və polis tərəfindən araşdırma fəaliyyəti təqsirin göstəriciləri kimi qəbul olunur və məhkəmə prosesləri zamanı onlara bu cür üstünlük verilir. İcra orqanları rəsmilərinin təqsirləndirilən şəxsin təqsirini təsdiq edən ifadələri ittiham tərəfindən sübut kimi qəbul olunur. Təqsirsizlik prezumpsiyası ilə bağlı əsas narahatedici məqam isə ondan ibarətdir ki, təqsirləndirilən şəxslərə qarşı irəli sürülən ittihamlar öz təsdiqini tapmamış

---

[5] Bu cür məlumatları «Oktyabrın 15-də Fərhad Əliyev hakimiyyətin zorla ələ keçirilməsinin maliyyələşdirilməsi üçün 100.000 avro məbləğində pulu şəxsən Fikrət Yusifova vermişdir. Həmin pullar 2005-ci il oktyabrın 16-da Fikrət Yusifovun mənzilində aparılan axtarış zamanı aşkar ediləræk, maddi sübut kimi götürülmüşdür. İstintaq gedişatında aparılmış axtarış zamanı Fərhad Əliyevə məxsus evlərdə, bağlarda və müxtəlif obyektlərdə külli miqdarda xarici valyuta, zinət əşyaları, sənət əsərləri və cinayət yolu ilə əldə edilmiş digər qiymətli əşyalar götürülmüşdür. Əməliyyat tədbirləri nəticəsində həmçinin müəyyən olunmuşdur ki, Fərhad Əliyev vəzifə səlahiyyətlərindən sui-istifadə edərək, dövlət əmlakının özəlləşdirilməsi zamanı ciddi qanun pozuntularına yol verərək dövlət əmlakını cüzi qiymətlərlə sənədləşdirərək, öz qohum və yaxınlarının adına rəsmiləşdirərək, faktiki olaraq, öz mülkiyyətinə keçirmişdir» dövlət orqanları tərəfindən yaymaq təqsirsizlik prezumpsiyası prinsipini ziddir.

[6] Daxili İşlər Nazirliyinin məlumatına əsasən, Rəsul Quliyev ədalət mühakiməsindən yayınmaq və antikonstitutsion yollarla hakimiyyətə gəlmək məqsədi ilə ölkədəki bəzi tərəfdarlarının və müəyyən destruktiv qüvvələrin dəstəyinə arxalanaraq, parlament seçkiləri ərafəsində daha da fəalşmış, növbəti cinayətkar əməllərə əl atmışdır.

[7] Bax, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi, *Barbera, Messague and Jabardo v. Spain*, A146(1989), par.77

məhkəmələr tərəfindən artıq onlarla “cinayətkarlar” kimi davranırlar. Qərb nümayandələri Azərbaycan məhkəmələrinə səfər edərkən məhkəmə prosesi zamanı müttəhimlərin adətən “qəfəsdə” oturmasından çox təəccüb edirlər.

Azərbaycanda təqsirsizlik prezumpsiyasına riayət etməmə hətta polis araşdırmaları və məhkəmə prosesi başa çatdıqdan sonra da davam edir. Məsələn, barəsində istintaq aparılmış və ya polis tərəfindən saxlanılmış şəxslər mülki mübahisələrlə bağli öz iddialarını irəli sürmək üçün eyni imkandan məhrum oluna bilərlər. Saxlanılma və araşdırmalar cinayətin törədildiyini göstərmək üçün nəzərdə tutulur və nəticədə bu mübahisələrin təqsirləndirilən şəxsin ziyanına həll edilməsi üçün əsas kimi götürülür.

## Ğ. Nəticə

Təqsirsizlik prezumpsiyası cinayət törətməkdə təqsirləndirilən şəxslərin ədalətli mühakiməsini təmin etməklə prosesin lazımi qaydada aparılmasının özülünü təşkil edir. Azərbaycan, liberal bir cəmiyyət kimi, ittiham olunan vətəndaşların dövlət rəsmiləri və media tərəfindən ırəli sürülən iddialar və iftiralar əsasında ictimai rəylə deyil, öz işlərinin mahiyyəti üzrə mühakimə olunmasını təmin etmək üçün daha çox səy gşstərməlidir. Azərbaycanda təqsirsizlik prezumpsiyasını möhkəmləndirmək üçün bu prinsipin hüquqi müdafiəsi möhkəmləndirilməli və eyni zamanda rəsmi bəyanatların və media vasitəsilə verilən məlumatların daha yaxşı tənzimlənməsi ilə yanaşı maarifləndirmə kampaniyası da aparılmalıdır. Yalnız bu yolla fərqli yanaşmalar bütün Azərbaycan vətəndaşlarının təqsirsizlik prezumpsiyasının müdafiəsini təmin etmək üçün hüquqi rejimləri daha da təkmilləşdirə bilər.

***Tövsiyələr***

1. Təqsirsizlik prezumpsiyası hüququ yalnız Konstitusiyanın və Cinayət və İnzibati Məcəllələrin müddəaları ilə tənzimlənməli deyil. Qanunvericilik orqanının üzvləri bu prinsipin ayrıca qanunla təzimlənməsini nəzərdən keçirməlidirlər.

2. Dövlət rəsmiləri, kütləvi informasiya vasitələrinin nümayəndələri və vətəndaşlar arasında təqsirsizlik prezumpsiyasına hörmətlə yanaşılmanı daha da inkişaf etdirmək üçün dövlətin hüquq siyasətində əsaslı islahatlar aparılmalıdır. Burada hüquqi maarifləndirmə çox vacib rol oynaya bilər və həm hökumət, həm də qeyri-hökumət təşkilatları bu cür proqramlar təsis etməlidirlər.

3. Hüquq-mühafizə orqanları tərəfindən araşdırmalar zamanı əldə olunmuş məlumatların rəsmi və özəl mətbuat orqanlarına ötürülməsi hallarına son qoyulmalıdır. Bundan əlavə, hökumət rəsmiləri tərəfindən

təqsirsizlik prezumpsiyasını pozan nitqlərin və ya materialların yayımının qarşısını almaq üçün müvafiq qanunvericilik qəbul edilməlidir.

4. Kütləvi informasiya vasitələrində təqsirsizlik prezumpsiyası ilə ziddiyyət təşkil edən məlumatların yayımı qadağan olunmalıdır. Qanunvericilikdə, təqsirsizlik prezumpsiyası pozulmuş şəxslərə kompensasiyanın ödənilməsi üçün, media qurumlarının maliyyə vəziyyətini təhlükə altına almadan maliyyə məsuliyyəti ilə bağlı standartlar müəyyən edilməlidir.

5. Yeni qanunvericilik tətbiq edilməmişdən əvvəl onun Konstitusiyanın 63-cü maddəsində təqsirsizlik prezumpsiyası ilə bağlı nəzərdə tutulmuş müddəalara uyğun olmasını təmin etmək üçün Konstitusiya Məhkəməsi, Ali Məhkəmə, Yeni Nəsil Jurnalistlər Birliyi, Media Hüquqları İnstitutu və Azərbaycan Jurnalistlər Birliyinin iştirakı ilə məslətləşmələr aparılmalıdır. Bu qurumlar eyni zamanda təqsirsizlik prezumpsiyası hüququ pozulmuş vətəndaşların statusunun necə bərpa olunması ilə bağlı tövsiyələr də verə bilərlər.